## Ruslan İsmayıl

### Əzizim

Düşündükcə gözlərimdən yaş axır,
Sanki qəlbim sənsiz atmır əzizim,
Bu can sənsiz elə yaman darıxır,
Heyif sənə əlim çatmır əzizim.

Səni mənə xatırladır hər sətir,
Həsrət mənim ürəyimə dərd əkir,
Kim nə bilir yazıq canım nə çəkir,
Qəlbə batan gözə batmır əzizim.

Mən aşiqəm, mən heyranam vurğunam,
Bu aralar çox sakitəm, durğunam,
Neçə vaxtı yuxusuzam, yorğunam,
Sevən adam yuxu yatmır əzizim.

Dəli könlüm həsrətindən alışıb,
Elə bilmə yoxluğunla barışıb,
Ümidlərim göz yaşına qarışıb,
Həyat qəlbə sevinc qatmır əzizim.